**1 saylı Əlavə**

**"Birbank Bahar Lotereyası"adlı tirajlı stimullaşdırıcı lotereyasının şərtləri**

**1.Ümumi məlumat**

**1.1 Lotereya təşkilatçısının adı:** "Kapital Bank" ASC
**1.2 Stimullaşdırıcı lotereya təşkilatçısının VÖEN-i**: 9900003611
**1.3 Stimullaşdırıcı lotereya təşkilatçısının hüquqi ünvanı:** AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi 71, tel.: +99412 598 12 95;
**1.4 Stimullaşdırıcı lotereya təşkilatçısının müvafiq fəaliyyət növünün adı:** Bank
**1.5 Lisenziyanın qeydiyyat nömrəsi:** 244 saylı
**1.6 Verilmə tarixi:** 05 noyabr 2018-ci il
**1.7 Qüvvədə olma müddəti:** müddətsiz
**1.8 Təqdim edən orqanın adı:** Azərbaycan Respublikasının Mərkəzi Bankı
**1.9 Stimullaşdırıcı lotereyanın adı:** "Birbank Bahar Lotereyası"
**1.10 Stimullaşdırıcı lotereyanın keçirilmə forması:** Stimullaşdırıcı, tirajlı
**1.11 Stimullaşdırıcı lotereyanın keçirilmə müddəti:** 11 mart – 15 may 2025-ci il
**1.12 Stimullaşdırıcı lotereyanın tirajlarının keçirilmə tarixləri:** 05.06.2025-ci il
**1.13 Stimullaşdırıcı lotereyanın keçirilmə yeri:** Azərbaycan Respublikasının ərazisi
**1.14 Stimullaşdırıcı lotereyanın keçirilmə məqsədi:** Kapital Bank-da Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star rəsmiləşdirən müştərilərin stimullaşdırılması

**2. Stimullaşdırıcı lotereyada iştirak qaydası:**

11 mart – 15 may 2025-ci il tarixləri aralığında Kapital Bankın onlayn müraciət kanallarından (kapitalbank.az, birbank.az və Birbank mobil tətbiqi, m10 tətbiqi, umico tətbiqi, umico.az), MSXŞ (Məsafədən satış və xidmət şöbəsi) və BSXŞ-dən (Birbaşa satış və xidmət şöbəsi) Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı üçün (qeyd olunan məhsullardan ən azı biri üçün) müraciət edərək rəsmiləşdirmə edib lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibi olan müştərilər **"Birbank Bahar Lotereyası"**adlı stimullaşdırıcı lotereyada iştirak edə bilmək üçün şans qazanırlar. (11 mart 2025-ci il tarixindən əvvəl rəsmiləşən Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı lotereyada iştirak etmir). Mövcud taksit kartı müştəriləriləri cari kartları yenisi ilə əvəz etdikdə kampaniyada iştirak etmir, istisna hal kimi bitmə müddətinə 3 ay və daha az qalan müştərilər yararlana bilərlər. Lotereya biletini əvəz edən məlumat daşıyıcısı qismində müqavilə nömrəsi (misal: BRCB1270000C299) iştirak edəcək və bu barədə Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı rəsmiləşdirərkən müştəriyə bank tərəfindən məlumat veriləcək.

**3. Şansların hesablanması:**

Rəsmiləşdiriləcək kredit (Gündəlik tələbat krediti, Refinans krediti) və ya kredit xətti (Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı) məbləğinin hər 1000 AZN-dək hissəsi 1 şans qazandırır. Kampaniya dövründə rəsmiləşən Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı üzrə qazanılan şanslar tiraj keçirilən günə limit azaldıldıqda qazanılmış şanslar da eyni qaydada azalır. Artırılan limit əlavə şans qazandırmır. Şanslar ilk rəsmiləşən limitə uyğun hesablanacaq. (İştirakçı siyahıları tiraj keçirilməmişdən bir gün əvvəl hazırlanır.) Gündəlik təlabat krediti və Refinans krediti tiraj günü kreditin (Refinans məhsulu üzrə isə tranşın) rəsmiləşmə anına ümumi məbləğ əsas götürülərək şans hesablanacaq. Müştəri paraleldə 2 və daha çox lotereya şansı verən müqavilə rəsmiləşdirərsə hər müqaviləyə görə şans qazanacaq. Umico kredit xətti, Birbank

taksit kartları və Birbank star kartı əldə edib **"Birbank Bahar Lotereyası"** adlı stimullaşdırıcı lotereyada iştirak edə bilmək üçün şans qazanan müştərilər kampaniya dövründə əldə etdikləri xətt və kartlarla Umico onlayn satış platformasında hər 1000 AZN-dək ödəniş əlavə bir şans qazandırır. Umico onlayn platformasında ödəniş geri qaytarılarsa (revers olunarsa) qazanılan şans da ləğv olunacaq. Kampaniya dövründə rəsmiləşən kartlarla kampaniyanın son gününədək edilən onlayn platfotmada ödəniş əlavə şans qazandırır. Kampaniya bitdikdən sonra edilən ödənişlər şans qazandırmayacaq.
Nümunə 1: 1000 AZN-dək rəsmiləşən Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartı və Birbank star kartı müştərilərə 1 şans, 1001 – 2000 AZN aralığında rəsmiləşən Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı müştərilərə 2 şans, 2001 – 3000 AZN aralığında Gündəlik tələbat krediti, Refinans kreidti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı müştərilərə 3 şans qazandıracaq. Qeyd olunan məbləğlərdən fərqli məbləğlər də bu qaydaya uyğun olaraq şans qazandıracaq.
Nümunə 2: Umico onlayn satış platformasında 1000 AZN-də alış-veriş 1 şans, 1001 – 2000 AZN aralığında alış-veriş 2 şans, 2001 – 3000 AZN aralığında alış-veriş 3 şans qazandıracaq. Qeyd olunan məbləğlərdən fərqli məbləğlər də bu qaydaya uyğun olaraq şans qazandıracaq.
Nümunə 3: Müştəriyə kampaniya dövründə 2900 AZN məbləğində gündəlik tələbat krediti və 1500 AZN limitli Birbank star kartı rəsmiləşdirilmişdir. Müştəri nağd pul kreditinə görə 3 və kredit kartına görə isə 2 şans qazanmaqla ümumilikdə 5 şans əldə edəcəkdir.
Nümunə 4: Müştəriyə kampaniya dövründə 3500 AZN məbləğində Birbank taksit kartları və 1000 AZN məbləğində Umico kredit xətti rəsmiləşdirir. Müştəri Birbank taksit kartına görə 4 şans, Umico kredit xəttinə görə isə 1 şans qazanır. Kampaniya dövründə Birbank taksit kartı ilə Umico onlayn satış platformalarında 300 AZN-lik alış-veriş edir. Etdiyi ödənişlərə görə, əlavə 1 şans daha qazanır. Beləliklə müştəri Kampaniya dövründə 6 şans əldə etmiş olur.

**4.Tiraj və hədiyyələr:**
Stimullaşdırıcı lotereyanın yekun nəticələrinə əsasən bir tiraj keçiriləcək. Ümumilikdə lotereya dövründə 100 qalib hədiyyə qazanacaq. İştirakçıların sayı bu göstəricidən az olarsa, uduş fondunun qalıq məbləği bankın sərəncamında qalacaq. Hədiyyələrin vergi xərcləri bank tərəfindən qarşılanacaq.

- 1 (bir) nəfər – Corolla LIVE + 2024 1.6L Benzin Dual VVT-i 16PT Benzin Pilləsiz transmissiya
- 4 (dörd) nəfər – iPhone 16 Pro (128 GB);
- 10 (on) nəfər – Apple Watch Series 8 (ağıllı saat);
- 15 (on beş) nəfər – Paşa Traveldən 500 AZN-lik ölkədaxili tur
- 25 (iyirmi beş) nəfər – Kontakthomedən 200 AZN-lik kupon
- 45 (qırx beş) nəfər – Bravo marketdən 50 AZN-lik kupon

**5. Lotereya şərtləri:**
Tiraj keçirilən tarixdə aktiv Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı müqavilələri olmayan müştərilər tirajda iştirak etməyəcək. Bir müştəri yalnız bir dəfə qalib ola bilər. Lotereyada Kapital Bank əməkdaşları və Kapital Banka aidiyyəti olan şəxslər (Azərbaycan Mərkəzi Bankının (AMB) "Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası"nı əsasən) iştirak etmir. Əlavə olaraq kampaniya tərəfdaş şirkətlərinin əməkdaşlarıda Competo MMC (umico az) və PashaPay MMC (m10) lotereyada iştirak etməyəcək. Rəsmiləşdirmə anında fərqli iş yerində çalışsalarda tiraj zamanı yuxarda qeyd olunan iş yerlərində çalışan əməkdaşlar lotereyada iştirak etməyəcəklər.

**6. Stimullaşdırıcı lotereya tirajlarının keçirilmə tarixi və qaliblərin sayı:**
11 mart – 15 may 2025-ci il tarixləri aralığında Gündəlik tələbat krediti, Refinans krediti, Umico kredit xətti, Birbank taksit kartları və Birbank star kartı rəsmiləşdirən şəxlər arasında 05 iyun 2025-ci il tarixində keçiriləcək tirajda 100 qalib elan olunacaq. Tiraj bankın ofisində (Bakı şəhəri, Port Baku 2, Neftçilər prospekti 153, Kapital Bank Baş ofis) komissiya üzvlərinin iştirakı ilə, kompüterdə xüsusi proqramın (Custom tool proqramı) vasitəsilə təsadüfi seçimilə keçiriləcək. Tiraj bankın sosial şəbəkə səhifələrində (www.facebook.com/birbank, www.instagram.com/birbank.az, www.youtube.com/birbank) canlı yayımlanacaq. Lotereya müddəti ərzində müştərilərin siyahısı xüsusi proqrama (Custom tool proqramı) daxil ediləcək, "Start" düyməsi basılacaq və qaliblər müəyyən olunacaq. Qaliblər "Excel" faylına inteqrasiya olunacaq. Siyahıda qaliblərin adları və soyadları, mobil nömrələri, müştəri (CİF) kodları, müqavilə nömrələri hər biri maskalanmış şəkildə qeyd olunacaq (7-ci bənddə nümunə əlavə olunub). Tirajın keçiriləcəyi tarix və saat barədə iştirakçılara məlumat veriləcək.

**7. Uduşların verilmə qaydası və müddəti:**
**7.1** Tirajlar oynanıldıqdan sonra qaliblərə SMS və ya "Birbank" mobil tətbiqinin Push bildirişləri vasitəsilə məlumat göndəriləcək. Qaliblərlə Bankın Əlaqə Mərkəzi şöbəsi tərəfindən əlaqə yaradılacaqdır. 90 iş günü ərzində qaliblə əlaqə saxlamaq mümkün olmadıqda, qalib Banka müraciət etmədikdə və ya uduşu qəbul etməkdən imtina etdikdə, uduş tələb olunmamış hesab ediləcək və Bankın sərəncamında qalacaq. Uduş fondu oynanıldıqdan sonra, Bank tərəfindən qalib şəxslərə uduşlar onların şəxsiyyətini təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi) əsasında təqdim ediləcəkdir. Qalib olmuş müştərilərin təqdim etdikləri etibarnamə əsasında üçüncü şəxsə hədiyyə təqdim edilə bilər. Lotereyanın şərtləri ilə lotereyada oynanılan uduşların dəyərinin pul ekvivalentinin ödənilməsi nəzərdə tutulmur. Qaliblərin lotereya biletləri tiraj keçirildiyi tarixdən etibarən 5 (beş) iş günündən sonra qebul ediləcək. Uduşlar lotereya təşkilatçısı tərəfindən lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq təqdim ediləcək. Lotereyada Corolla LIVE, iPhone 16 Pro (128 GB), Apple Watch Series 8 hədiyyələrinin birinin qalibi olmuş müştərilərə bankın ofisində (Bakı şəhəri, Port Baku 2, Neftçilər prospekti 153, Kapital Bank Baş ofis) təqdim ediləcək. Paşa Traveldən 500 AZN-lik ölkədaxili tur, Kontakt Homedən 200 AZN-lik kupon, Bravo marketdən 50 AZN-lik kupon qalibi olmuş müştərilərin istəyinə uyğun olaraq, bankın ofisindən (Bakı şəhəri, Port Baku 2, Neftçilər prospekti 153, Kapital Bank Baş ofis) və ya region filiallarının birindən əldə edə biləcəklər.

**SMS nümunə**: Tebrikler, Rəcəbov Abbas! Siz 05.06.2025 tarixinde kecirilen "**Birbank Bahar Lotereyası**" kampaniyasının tirajinda BRCB0000000C299 nomreli muqavileniz uzre iPhone 16 Pro hədiyyə qazandiniz.
**7.2** Stimullaşdırıcı lotereyanın şərtləri və müəyyən olunan qaliblərin maskalanmış məlumatları (ad, soyad, mobil nömrə, müştəri (CİF) kodu, müqavilə nömrəsi - nümunə A**** R******* V****: 055**9***5: 250****: BRCB0000000C299) bankın korporativ internet saytlarında (birbank.az), sosial şəbəkələrindəki səhifələrində (www.facebook.com/birbank, www.instagram.com/birbank.az, www.youtube.com/birbank) və KİV–də (Fed.az, fins.az, banker.az, marja.az, trend.az) 5 iş günü ərzində dərc olunacaq. Qalib müştərilərlə Bankın Əlaqə Mərkəzi şöbəsi daha sonra əlaqə saxlayıb uduşun alınma qaydası, müddəti və digər detallar barədə ətraflı məlumatı təqdim edəcək.